Bu bir xalq qəzetidi

ƏDALƏT

## Ankara Rusiya ilə Ukraynanın mövqelərinin daha da yaxınlaşmasını alqışlayır



**Ankara danışıqlar prosesinin hər mərhələsində Rusiya və Ukraynanın mövqelərinin daha da yaxınlaşmasını alqışlayır.**

Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbuldakı danışıqlarının yekunları üzrə dayib.

Onun sözlərinə görə, İstanbulda aparılan danışıqlarda bir sıra məsələlərdə razılaşma və mövqelərin yaxınlaşması qeydə alınıb. "Rusiya və Ukrayna ən mühüm irəliləyişə nail olublar", - deyə XİN rəhbəri bildirib.

M.Çavuşoğlu ölkəsinin Rusiya-Ukrayna danışıqlarının təşviqinə verdiyi töhfədən məmnunluğunu ifadə edib.

"Kiyev və Moskva arasında danışıqların gündəliyindəki daha mürəkkəb mövzulara Ukrayna və Rusiya xarici işlər nazirləri növbəti mərhələlərdə baxacaqlar. Bundan sonra iki ölkə prezidentlərinin görüşü gündəmə gələcək", - deyə XİN rəhbəri əlavə edib.

## Ərdoğan: "Putinlə Zelenskinin görüşünə ev sahibliyi etməyə hazırıq"



**"Dünya sizdən gələn müjdələri gözləyir".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna nümayəndə heyətləri ilə görüşdə deyib. "Sizin müzakirələrdə əldə etdiyiniz nəticə növbəti mərhələdə liderlər səbiyyəsində təması da təmin edə bilər. Rusiya və Ukrayna prezidentlərinin görüşünə ev sahibliyi etməyə hazırıq", - o bildirib.

## Rus deputat Azərbaycandan üzr istədi



**Azərbaycanın neft sənayesinə zərbə endirməyə çağırış edən Rusiya Dövlət Dumasının deputatı Mixail Delyaqin sözlərinə görə üzr istəyib.**

Adalet.az xəbər verir ki, rusiyalı deputat "Qovorit Moskva" radiostansiyasının efirində bildirib ki, o, düzgün anlaşılmayıb. Delyaqin bildirib ki, verilişin formatına uyğun olaraq belə bir davranış sərgiləyib. "Mənim sözlərimdən qorxan, inciyən və yaxud təhqir olunan hər kəsdən üzr istəyirəm", - deyə Delyaqin söyləyib.

## Azərbaycanda Ramazan bayramının tarixi açıqlandı



**Azərbaycanda Ramazan bayramının tarixi açıqlanıb.**

Adalet.az bildirir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Ramazanla bağlı fətvasında deyilir. Fətvada qeyd olunur: "Ramazan bayramı Şəvval ayının 1-i - Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 2-nə təsadüf edəcəkdir, inşallah.

Bütün İslam ümmətini mübarək Ramazanın gəlişi münasibətilə təbrik edir, müqəddəs dinimizə ehtiram nümayiş etdirməkdə, oruc ibadətimizi layiqincə tamamlamaqda bizə yardımçı olmasını Uca Rəbbimizdən diləyirik!

Allah oruc və namazlarımızı qəbul etsin, bizləri məğfirət və mərhəmətə nail olan bəndələrindən qərar versin.

Allahdan diləyim budur ki, Öz Böyük Mərhəmət və Kəramətini xalqımızın üzərində bərqərar etsin, dövlətimizi qalib və dövlət rəhbərimizi hər zaman müzəffər qərar versin, bütün ülvi arzu və xoş niyyətlərimizin gerçəkləşməsini bizlərə qismət etsin. Amin".

## Fərrux dağının mənəvi tərəfdən də çox böyük önəmi var

Bax:səh-2

Bu bir xalq qəzetidi www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 15 (5952) 31 mart 2022-ci il | Qiyməti 30 qəpik

# 31 mart - Azərbaycanlıların Soyqırımı Günü



Bax:səh-2

## Blinken: "Ukrayna ətrafındakı vəziyyət bütün dünyaya problem yaradır"



**"Ukrayna ətrafında vəziyyət ərzaq və enerjidaşıyıcıları baxımından problemlər yaradır".**

Adalet.az xəbər verir ki, bu sözləri ABŞ Dövlət katibi Entoni Blinken deyib.

"Bu, bütün dünyaya problem yaradır", - deyə o bildirib.

E.Blinkenin sözlərinə görə, Ukrayna ətrafında baş verənlər əsasən buğda ilə bağlı vəziyyətə təsir edir, enerjidaşıyıcıları isə diqqət yönəldilməli digər bir problem olaraq qalır. Dövlət katibi həmçinin Avropa üçün enerji mənbələrini şaxələndirməyin gərəkli olduğunu, Rusiyanın enerjidaşıyıcılarından siyasət alət kimi istifadə etdiyini bildirib.

## Müdafiə Nazirliyindən əsgərin iddialarına reaksiya



**Müdafiə Nazirliyi hazırda hərbi xidmətdə olan Fərid İsmayılovun xidmət keçdiyi hərbi hissədəki çatışmazlıqlar barədə sosial şəbəkə hesabından etdiyi paylaşımdakı iddialarına münasibət bildirib.**

Müdafiə Nazirliyindən Adalet.az-a bildirilib ki, hərbi xidmətdə olan hər bir hərbi qulluqçunun ailə vəziyyəti, sosial statusu, cəmiyyətdə tutduğu mövqeyi və digər amillərdən asılı olmayaraq onlar nizamnamələrin tələblərinə uyğun olaraq xidmət keçir və komandanlıq tərəfindən eyni diqqət və qayğı ilə əhatə olunurlar:

"Bildiririk ki, hərbi qulluqçunun məlum müraciətində səsləndirilən fikirlər yalandır, əsassızdır. Bu kimi qeyri-adekvat çıxışlar Ordumuzun nüfuzuna xələl gətirmək istəyən qüvvələrin məqsədlərinə xidmət edir.

Sosial şəbəkələr vasitəsilə Ordumuzun xidməti fəaliyyətinə müdaxilə edilməsi cəhdini qəti surətdə pisləyir və belə addımları yolverilməz hesab edirik".

## "Çernobıl hər an partlaya bilər"

**"Çernobıl AES-də sursatların partlaması riski var və obyekti zəbt edən Rusiya qüvvələri dərhal geri çəkilməlidir".**

Adalet.az xəbər verir ki, bunu Ukrayna baş nazirinin müavini İrina Vereçuk deyib. Onun sözlərinə görə partlayış xəbərdarlığı Ukrayna silahlı qüvvələri tərəfindən verilib.

"Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qadağan zonası olan Çernobılın demilitarizasiyası üçün təcili tədbirlər görməsini və nüvə fəlakəti riskini yenidən minimuma endirmək üçün bölgəyə BMT-nin xüsusi missiyasına başlamasını tələb edirik", - Ukrayna rəsmisi deyib.

Vereçuk həmçinin bildirib ki, Ukrayna dünən İstanbulda keçirilən danışıqlarda Rusiyadan hücumlardan ən çox zərər çəkən kənd və şəhərlərdə 97 humanitar dəhlizin açılmasına icazə verilməsini istəyib.

**Ukrayna işğalının əvvəlində Rusiya ordusunun Çernobıldakı zavodu ələ keçirməsi 1986-cı ildə nüvə fəlakətinin baş verdiyi stansiyada yeni sızmanın baş verə biləcəyi ilə bağlı narahatlıqlara səbəb olub.**

## Fərrux yüksəkliyində tapılan meyit qalıqları müayinədən keçiriləcək



**"Bildiyiniz kimi, Birinci Qarabağ müharibəsindən bugünədək 4000-dək soydaşımız barədə hələ də məlumat yoxdur".**

Adalet.az APA-ya istinadən bildirir ki, bunu xarici işlər nazirinin müavini Elnur Məmmədov Qubada YAP-ın təşkilatçılığı ilə "Soyqırımı: Ümumbəşəri cinayətlər kontekstindən yeni baxış" mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib. O qeyd edib ki, torpaqların işğaldan azad olunmasından sonra Kəlbəcərin Başlıbel, Şuşanın Daşaltı, Xocavəndin Edilli kəndləri ərazisində kütləvi məzarlıqlar aşkar edilib: "Aparılan tədqiqatlar müəyyən edir ki, bu məzarlıqlar, meyit qalıqları Birinci Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən əsir və girov götürülərək, ağır işgəncələr verilərək qətlə yetirilən Azərbaycan vətəndaşlarına aiddir". Nazir müavini vurğulayıb ki, artıq Xocalının Fərrux yüksəkliyində də insan sümükləri aşkarlanıb və həmin qalıqların da tədqiqatı həyata keçiriləcək.

## Vüqar Səfərlinin şikayəti rədd edildi



**Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq icraçı direktoru Vüqar Səfərli və onunla birgə ittiham olunan Nadir Məmmədov, Şahin İbrahimov və Telman Tahirovun barələrində olan hökmdən verdikləri apellyasiya şikayətləri ilə bağlı məhkəmə prosesi yekunlaşıb.**

Adalet.az-ın xəbərinə görə, Bakı Apellyasiya Məhkəməsində hakim Faiq Qasımovun sədrliyi ilə keçirilən iclasda qərar elan olunub. Qərara əsasən, şikayətlər təmin olunmayıb. Xatırladaq ki, təqsirləndirilən şəxslər barəsində Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə-xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma-külli miqdarda törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə-ağır nəticələrə səbəb olduqda), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Vüqar Səfərli 10 il 6 ay, onunla birlikdə saxlanılan Nadir Məmmədov 6 il müddətinə azadlıqdan məhrum edilib. Cinayət işi üzrə digər təqsirləndirilənlər - Bünyamin İsmayılov, Ədalət Vəliyev, Namiq Hacıyev, Bəxtiyar Fətullayev, Təmkin Xəlilov, Telman Tahirov, Valeh Orucov, Şahin İbrahimov və Təhminə Yaqubovaya sınaq müddəti seçilməklə şərti cəza verilib.

## Türmədən meyxana deyən uşaq

***Ən zəhləm gedən şey 5-6, lap 8-9 yaşlı uşaqlara kostyum geyindirilməsidi. Niyə? Bu kostyum sevgisi nədir axı bu ölkədə? Niyə qoymursunuz ki, uşaqlar uşaq kimi böyüsün? İndi rastıma çıxdı, hansısa bölgədə mağar toyunda uşaq "salam kürdəxanıdakə dustaqlara" qafiyəsiylə meyxana deyir. Yekə-yekə kişilər də cibinə pul basıb əl çalır. Böyüyü belə qandalbaş, zindansifət olanlardır da belə gerizəkalı bir nəsil yetişdirirlər. Uşaq da belə böyüyür, özüylə fəxr edir, vaxtından tez böyük-böyük söhbətlət eləməyə başlayır. Təkcə bu mövzuda yox, ümumən uşaqları az yaşında böyüməyə qoymamaq lazımdı.***

## Ukraynada 2 azərbaycanlı həlak oldu

***Ukraynada gedən müharibədə daha 2 azərbaycanlı həlak olub.***

***Adalet.az xəbər verir ki, Rusiya Silahlı Qüvvələrinin Çerniqov vilayətinin Nosovka şəhərini artilleriya atəşinə tutması nəticəsində Ukrayna vətəndaşı olan 2 azərbaycanlı həlak olub. Bunlar 50 yaşlı Rauf Məmmədov və 35 yaşlı Ruslan Əhmədovdur. Onlar mülki vətəndaş olublar. Azərbaycanlılar ilə yanaşı şəhərdə xeyli ukraynalı da həlak olub.(report)***

## Nazir Lənkəranda vətəndaşların problemini yerindəcə həll etdi



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 30-da Lənkəran Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Daha sonra Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasında Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının 71 sakinini qəbul edən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini dinləyib, problemlərinin operativ həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb.

Qəbula gələn vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq belə qəbulların təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına, həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

Səfər çərçivəsində nazir DİN-in Daxili Qoşunlarının Lənkəranda yerləşən hərbi hissəsində də olub. Daha sonra general-polkovnik V.Eyvazov Lənkəran Şəhər Rayon Polis Şöbəsində bölgə üzrə polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

## Britaniya Ukraynaya təhlükəsizlik zəmanəti verməyə razılaşan ilk ölkə oldu



**Böyük Britaniya Ukraynadakı hərbi əməliyyatların dayandırılmasına və Rusiya qoşunlarının bu ölkədən çıxarılmasında vasitəçi olmağa hazırdır.**

Adalet.az xəbər verir ki, bu sözləri Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi Barbara Vudvord Ukrayna və Rusiya arasında aparılan danışıqların nəticələrini şərh edərkən deyib. Diplomat bəyan edib ki, Böyük Britaniya Ukraynanın təhlükəsizliyinin təminatçısı olmağa hazırdır.

## Zəngilan, Füzuli və Suqovuşanda da yeni məktəb tikilir

**Təhsil Nazirliyi işğaldan azad olunmuş ərazilərdə məktəb tikintisi ilə bağlı layihələri açıqlayıb.**

Adalet.az-ın məlumatına görə, Şuşa və Ağdam şəhərlərində 960 şagird yerlik məktəblərin tikintisi davam etdirilir.

Qeyd olunub ki, Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağalı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunur.

Bundan başqa, Cəbrayıl və Füzulidə 960 yerlik tam orta məktəbin tikintisinin, Suqovuşan qəsəbəsində isə 144 şagird yerlik məktəbin əsaslı təmirinin layihə-smeta sənədləri hazırlanır.

## Həbsdə olan sabiq icra başçısından yeni xəbər



**Yevlax Şəhər İcra Hakimiyyətinin həbsdə olan sabiq icra başçısı Qoca Səmədovun kassasiya şikayəti icraata götürülüb. Bu barədə "Report"a onun vəkili Elnur Vəliyev bildirib.**

O deyib ki, kassasiya şikayəti Ali Məhkəmənin hakimi Tahir Kazımovun sədrliyi ilə araşdırılacaq.

Məhkəmənin vaxtı hələlik məlum deyil.

Qeyd edək ki, 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Q.Səmədov Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi əməliyyat zamanı saxlanılıb.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, yeddi il üç ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan məhkum apellyasiya şikayəti verib. Şəki Apellyasiya Məhkəməsinin qərarına əsasən, Q.Səmədovun cəzası altı ilə endirilib.

## Bakı Ali Neft Məktəbinin məzunu "Google"da işə qəbul olunub



*Bakı Ali Neft Məktəbinin (BANM) məzunu Rəhim Rəhimli dünyanın ən böyük axtarış sistemi və reklam sahəsində ixtisaslaşmış transmilli şirkəti "Google"da işə qəbul olunub.*

*Adalet.az xəbər verir ki, bu barədə Bakı Ali Neft Məktəbi "Facebook" səhifəsində paylaşım edib.*

*O, 2013-cü ildə 680 balla BANM-in Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasına daxil olub. Prezident təqaüdçüsü olub. Rəhim Rəhimli Ali Məktəbi 2018-ci ildə fərqlənmə diplomu ilə və ixtisas birincisi olaraq bitirib.*

*Qeyd edək ki, "Google" dünyanın ən böyük axtarış sistemi və reklam sahəsində ixtisaslaşmış, ABŞ-da yerləşən transmilli şirkətdir. "Google" internetdə yerləşən bir çox xidmət və məhsullara sahiblik etməklə yanaşı, onları inkişaf etdirir. Gəlirinin böyük hissəsini "AdWords" proqramı ilə reklamlardan əldə edir. Şirkətin yaradılmasında məqsəd dünyadakı məlumatları təşkilatlandırmaq və əlçatan etmək olub.*

## GÜNÜN LƏTİFƏSİ

Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədirə**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**

Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

## İlham Əliyev Bakıda yeni inşa edilmiş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış oldu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılan şəraitlə tanış olub.**

Adalet.az xəbər verir ki, ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət otaqları və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilib.

Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı vardır.

Dövlətimizin başçısının istehsalat sahələrinin genişləndirilməsi, bu fəaliyyətə sahibkarların, iş adamlarının cəlb edilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq yeni müəssisələrdə yaradılmış istehsal bölməsində məhkumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.

Müəssisənin ikimərtəbəli tibb-sanitariya hissəsində həkim otaqları, müasir avadanlıqla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir.

Yeni penitensiar müəssisədə məhkumlarla görüşlər üçün də bina inşa olunub.

Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar vardır.

Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.

Qeyd edək ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir.

Burada yaradılan müasir şərait məhkumların hüquqlarının təminatına, onların səmərəli islah olunaraq sosial adaptasiyasına xidmət edəcəkdir.

Xatırladaq ki, Bakının Zabrat qəsəbəsində yeni istintaq təcridxanası, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslər inşa olunub. Gəncə və Lənkəran şəhərlərində, habelə paytaxtın Umbakı qəsəbəsində belə müəssisələrin tikintisi aparılır.

Azərbaycan dövlətinin siyasi kursunda humanizm başlıca prinsiplərdən biridir. Prezident İlham Əliyevin bu vaxtadək imzaladığı 35 əfv aktı ilə 6 minədək məhkum bağışlanıb, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Eyni zamanda, ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

Zəfər Günü münasibətilə elan edilmiş və bu ərəfədə icrası başa çatan amnistiya aktı isə dövlətimizin başçısının humanizm siyasətinin növbəti təzahürü olmaqla daha böyük əhatə dairəsinə görə fərqlənib və 15 mindən çox şəxsə şamil edilib.

Həmçinin həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının genişləndirilməsi haqqında ayrıca qanun qəbul olunub, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayət qanunvericiliyinə 600-dək dəyişiklik edilib, bir çox əməllər dekriminallaşdırılıb və 2200-ə yaxın məhkum cəzadan azad olunub.

**Eyni zamanda, məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı daim diqqətdə saxlanılaraq onların sosial adaptasiyası ilə bağlı xüsusi qanun qəbul olunub. Vaxtından əvvəl şərti azadetmə institutu da səmərəli tətbiq olunaraq son iki ildə 3500-dən çox məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıb.**

## Prezident Britaniyanın Silahlı Qüvvələr nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.**

Adalet.az xəbər verir ki, görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlətimizin başçısının Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edildi.

Bildirildi ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi ”Qətiyyətli dəstək” missiyasında Azərbaycanın iştirakı qeyd edildi.

**Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə post-münaqişə dövründə gedən proseslər barədə danışdı.**

# 31 mart – Azərbaycanlıların Soyqırımı Günü

**Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik ”Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, insanlar işgəncələrə məruz qalmışdır.Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmişdir.**

1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunlarıvə daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.

1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirilmiş, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar.

Mart soyqırımında ”Daşnaksutyun” partiyasının, daha doğrusu terror təşkilatının iştirakı danılmazdır.1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınına başlanılmışdır. Dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda ”Daşnaksutyun” partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər.

Erməni terrorçularının Azərbaycanın Şamaxı bölgəsində törətdikləri vəhşiliklərin miqyası daha böyükdür.Şamaxı hadisələri ilə əlaqədar ilkin məlumat mənbələrinin böyük hissəsi məhv olduğu üçün və tədqiqat işləri hələ də davam etdirildiyi səbəbindən erməni cinayətlərinin tam mənzərəsi formalaşmayıb. Ekspertlərin rəyinə əsasən Şamaxının 72 kəndində ermənilər tərəfindən 7 min nəfərin, o cümlədən 1653 qadın və 965 uşağın öldürdüyü bildirilir. Bu faciənin tədqiqi məqsədilə 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib.

Ötən əsrin 90-cı illərindən etibarən yerli tədqiqatçılar da bir sıra araşdırmalar aparıblar. Onların tədqiqatı nəticəsində (yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar) müəyyən edilib ki, erməni cinayətkarları Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub.

***Quba qırğınları zamanı şəhərdə öldürülənlərin təxmini sayının 2900-dək, Quba qəzası üzrə ümumilikdə isə 4000 nəfərdən artıq olduğu qeyd olunur. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılmış, 2750-dən çox ev tamamilə yandırılmışdır. Tədqiqat zamanı o da məlum oldu ki, ermənilər dinc əhaliyə divan tutan zaman odlu silahdan istifadə etməyiblər. Aşkarlanan kəllə və digər insan sümüklərində güllə yeri yoxdur. Onların hamısı küt alətlərlə öldürülüb. Araşdırmalar göstərir ki, qətlə yetirilmiş insanların baş nahiyəsindən balta ilə vurublar. Sonra xəncərdən istifadə etməklə başı bədəndən ayırıblar. Bəzi kəllə sümüklərində mismarlar aşkarlanıb. İnsanların başına mismar vurmaqla öldürülməsi bu vəhşiliyin hüdudlarının olmadığını göstərir. Xüsusi qəddarlıqla öldürülən insanlar su arxlarına və quyulara doldurulub, üzəri torpaqla örtülüb.***

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədi ilə 1998-ci il martın 26-da Ulu ÖndərHeydər Əliyev ”Azərbaycanlıların soyqırımı haqqında” Fərman imzalamışdır. Sözügedən Fərmanla martın 31-i ”Azərbaycanlıların Soyqırımı Günü” elan edilmişdir. Fərmanda deyilirdi: ”Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.



Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir”.

Həmin Fərmanın icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı Ulu ÖndərHeydər Əliyev 30 mart 1999-cu ildə tədbirlər planıtəsdiq etmişdir.

***Ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılmışdır. Adıçəkilən Fərmanınimzalanması faktı məsələ ilə bağlı aparılan tədqiqatlara, habelə həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Sözügedən Fərmandan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görülmüş, çoxlu əsərlər yazılmış və əcnəbi dillərə tərcümə olunmuşdur. Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir.***

2007-ci ilin aprelində Quba stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri nəticəsində kütləvi məzarlıq aşkarlandı. Məzarlıqdan tapılan insanların cəsədləri üzərində tibbi ekspertiza, antropoloji araşdırmalar aparıldı. Məzarlıqda 500-dək insan kəlləsi vardı. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara aid idi. Bu adamların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanları olduğu sübuta yetirildi. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində ”Soyqırımı memorial kompleksi”ninyaradılmasına qərar vermişdir. Memorial kompleks 2012-2013-cü illərdə Quba şəhərində Qudyalçayın sol sahilində inşa edilmiş və 2013-cü il sentyabrın 18-də açılmışdır. Kompleksin ümumi sahəsi 3,5 hektardır və 5 hissədən ibarətdir. Prezident İlham Əliyev Soyqırımı memorial kompleksinin açılışı zamanı demişdir: ”1918-ci ilin mart-iyul aylarında erməni quldurdəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir.”

**Erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Prezident İlham Əliyev 2018-ci il yanvarın 18-də ”1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalamışdır. Sərəncamla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsinin təmin edilməsi tapşırılmış, həmçinin Milli Məclisə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilmişdir.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

## Fərrux dağının mənəvi tərəfdən də çox böyük önəmi var

**Hərbi jurnalist Səxavət Məmməd son günlər Fərrux kəndi və yüksəkliyi ətrafında baş verən gərginliklə bağlı fikirlərini adalet.az-a bölüşüb. Onun sözlərinə görə Fərrux dağında erməni silahlılarının olması o anlama gəlirdi ki, Kolanlı dərəsindəki bütün kəndlər və Ağdam şəhəri də daxil olmaqla geniş ərazini nəzarətdə saxlaya bilirdilər.**

”Artıq bir neçə gündür ki, Fərrux dağında Azərbaycan ordusu xidmət aparır. Əgər Fərrux dağında Azərbaycan ordusu xidmət aparırsa, bu o deməkdir ki, Fərrux kəndində nəzarət tam Azərbaycan ordusunun nəzarətindədir. Çünki Fərrux kəndi Fərrux dağının yamacında Xaçın çayının sol sahilində yeləşir. Təkcə bunu bilmək Rusiya Müdafiə nazirliyinin açıqlamasının yalan olması anlamına gəlirdi. Fərrux dağı Qarabağdakı ən strateji yüksəkliklərdən biridir. Fərrux dağında erməni silahlılarının olması o anlama gəlirdi ki, Kolanlı dərəsindəki bütün kəndlər və Ağdam şəhəri də daxil olmaqla geniş ərazini nəzarətdə saxlaya bilirdilər. Bundan əlavə vizual olaraq Fərrux dağından bir neçə rayonumuzu da müşahidə etmək çox asandır. Fərrux dağında Azərbaycan ordusunun mövqe tutması o anlama gəlir ki, Xocalı rayonunun Pirlər kəndinə də tam nəzarət Azərbaycan ordusunun tərəfindədir. Fərrux dağı və silsilədəki bir neçə yüksəkliyə yerləşməklə Azərbaycan ordusu Qarabağ daxilindəki bir neçə əsas yollara da nəzarəti öz əlinə keçirib.



Səxavət Məmmədin fikirlərinə görə Azərbaycan ordusu yüksəklikdən geri çəkilməyib. ”Onu da qeyd etmək istəyirəm ki, Fərrux dağında Azərbaycan ordusu yerləşdikdən sonra Rusiya sülhməramlıları təminatın çatdırılması üçün bəzi neqativ addımlar atıb.

Məhz bundan sonra ”Azərbaycan ordusu yüksəklikdən geri çəkilib” tipli xəbərlər yayıldı. Ancaq Fərruxda heç bir çəkilmə olmayıb, sadəcə mövqelər nəzarətə götürüləndən sonra bölmələrin yerdəyişməsi həyata keçirilib.

Havanın soyuq olması və qar bəzi problemlər yaradırdı. Azərbaycan ordusu bütün bunları da həll edə bilib. Hazırda Fərrux dağında və bir neçə yüksəklikdə Azərbaycan ordusu xidmət aparır.

Fərrux dağının mənəvi tərəfdən də çox böyük önəmi var. Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan ordusunun ən çox itki verdiyi ərazilərdən biri də, Fərrux dağı olub. Düşünürəm ki, Fərrux dağına nəzarət əldə olunduğu üçün Ağdam rayonunda tikinti işlərinə rahat şəkildə start verilə bilər.”

**Emin Piri**

## Almaniya Rusiyadan qaz tədarükünün dayandırılmasına hazırlaşır

**Almaniyanın iqtisadiyyat naziri Robert Xabek Rusiyadsn qaz tədarükünün dayandırılmasına hazırlıqla bağlı məlumat verib.**

"Bu vəziyyətlə bağlı ilkin hazırlıqlara başlamışıq. Hazırda mümkün üç variantdan birinci səviyyəyə qarşı hazırlıq işləri aparırıq"- deyə nazir bəyan edərək əlavə edib ki, hazırda Almaniyaya qaz və neft əvvəlki qaydada verilir.

"Xüsusi qeyd etmək lazımdır ki, bu sahədə təminat öhdəliklər üzrə yerinə yetirilir. Biz Belçikadan, Fransadan və Niderlanddan daim qaz alırıq. Hazırda Qaz anbarlarımız təxminən 25 faiz həcmində ehtiyyat toplayıb"- deyə Xabek bildirib. Nazir, vəziyyətlə bağlı böhran qərərgahının yaradılacağını deyib. Rusiya prezidenti Vladimir Putin 23 martda Mərkəzi banka, dost olmayan dövlətlərə qazı rus rublu ilə satmağı tapşırıb. Xabek Rusiyanın bu addımının "Böyük yeddilik" ölkələri tərəfindən Moskvanın müqavilələri bir tərəfli qaydada pozması kimi qiymətləndirdiklərini bəyan edib. Kreml isə bildirib ki, Rusiya heç kimə pulsuz qaz verməyəcək.

**Bu arada Reuters agentliyi, "Yamal - Avropa" qaz kəmərinin Malnov stansiyasında qaz ötürülməsinin səviyyəsinin sıfıra endiyi barədə məlumat yayıb. "Yamal-Avropa" qaz kəməri, Ukrayna və "Şimal axını" qaz kəmərləri ilə birlikdə Rusiyanın mavi yanacağını Avropaya çatdıran əsas marşurutlardan biridir.**

**Rüstəm Hacıyev**

## Ermənistanın məkrli "dəstək" planlarında "Artsax" ümidləri...

**Rusiya fevralın 24-də Ukraynaya qarşı müharibəyə başlayandan ona ən çox dəstək verən Ermənistan olub. Müharibənin ilk günlərində mərkəz İrəvan şəhərində Kiyev adlanan körpüdən 50 metrlik plakat açıldı . Plakatda iri hərflərlə ”Rusiya Ordusu” yazıldı. Bu addım Rusiya ordusuna və Rusiya Federasiyasının prezidenti V.Putinə dəstək aksiyasının bir hissəsi kimi dəyərləndirildi.**



Martın 19-da isə İrəvanda mindən çox şəxsin iştirakı ilə Rusiyanın Ukraynadakı hərbi əməliyyatlarına dəstək mitinqi keçirildi. Ermənistan və Rusiya bayraqlarının dalğalandırıldığı aksiyada Rusiya səfirliyinə istiqamətində yürüşlə başladı. Mitinqdə Rusiyanı dəstəkləyici şüarlar səsləndirildi, İkinci Dünya müharibəsinə həsr olunmuş mahnılar oxundu. Bununla iştirakçılar diplomatik missiyanın əməkdaşlarına dəstəklərini ifadə etdilər.

Bu arada erməni mediası yazdı ki, Qarabağ separatçılarının ”siyasi qüvvələri” Xankəndidə qondarma ”Donetsk və Luqansk xalq respublikaları”nın tanınması hüququnun müdafiəsi üçün aksiya keçirdi. Bundan sakitləşməyən ermənilər Rusiyanın gözünə ”girmək ” üçün daha ”qabarıq” yollar axtarıb tapmağa çalışdılar və tapdılar.

”Vahid Ermənistan” partiyasının lideri, ”Erməni Qartalları” könüllü dəstəsinin komandiri, erməni polkovnik Xaçik Asryan öz sosial şəbəkə hesabında erməni xislətinə uyğun bir paylaşım etdi.O, ”44 günlük müharibə”də Azərbaycana hərbi, iqtisadi və mənəvi dəstək olan Ukraynaya qarşı döyüşə hazır olduğuna dair məlumat yaydı. Hətta Xaçik Asryan artıq bu müraciəti ilə bağlı hazırlıqlara başladığını bəyan etdi. Dəstə başçısı müvafiq məktubu Moskvanın Ermənistandakı səfiri Sergey Kopırkinə təqdim etdi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və törətdiyi terror aktlarında fəal iştirak edən erməni terrorçular, rusiyameyilli və irqçi baxışları ilə fərqlənən ”Erməni qartalları” Rusiya Prezidenti Vladimir Putinə müraciətdə birbaşa Donbasa getmək üçün izn istədilər.

Ermənilər ”dəstək” fikirlərində hələ də israrlı olduqlarını bildirməkdədir.

Adalet.az Haber Global-a istinadən xəbər verir ki, Ermənistan Ukrayna ilə müharibədə Moskvaya dəstək üçün Rusiyaya hərbi pilot və təyyarələrini göndərib.

Türkiyə KİV-in əldə etdiyi məlumata görə, 4 ”SU-30” hərbi təyyarəsi martın 25-i Ermənistandan havaya qalxıb və Rusiya hava limanına enib. Bu təyyarələri xüsusi hazırlanmış erməni pilotların idarə etdiyi bildirilir. Bununla da Ermənistan Rusiyaya dəstək olduğunu əyanı şəkildə göstərib.

Xatırladaq ki, Rusiya fevralın 24-də Ukraynaya qarşı müharibəyə başlayıb. Artıq müharibənin başlanmasından bir aydan da çox müddətin keçməsinə baxmayaraq, Rusiya Ukraynanın heç bir böyük şəhərində üstünlük qazana bilməyib. Ukrayna MN-in son məlumatına görə, Rusiya ordusu indiyədək 17 minə yaxın hərbçi itirib.

***P.S. Hamımıza, eləcə də bütün dünyaya məlumdur ki, ermənilərin bu addımlarının səbəbi heç də müttəfiqə sadiq qalmaq, Ermənistanı hər zaman kənar zərbələrdən qoruyan Rusiyaya vəfa borcu deyil. Bu addımlar adını Artsax qoyduqları Qarabağ bölgəsinin hələ bir neçə ildə işğalda saxlamaq, sülh və mehriban qonşuluq prinsiplərini məhv etmək, sərhədd probleminin Rusiyanın əli ilə həyata keçirmək arzusundan irəli gəlir. Məkrli Ermənistanın ümidləri, gözləntiləri, umacağı şəksiz ki, Azərbaycan Ordusunun və Azərbaycan siyasətinin nəticəsində puç olacaq!***

**Əntiqə Rəşid**

*Zaur Əliyev*

## Dro Kanayanın əsgərləri qaçmağa başladılar



*Fərrux kəndini və dağını 1920- ci ilin aprel ayında böyük hərbi əməliyyatla azad edən Cümhuriyyətin 3 generalından biri Həbib bəy Səlimov.*

*Aprelin 2-də Həbib bəy Səlimovun komandanlığı ilə həmin ilin mart ayının 20-də ermənilər tərəfindən ələ keçirilən eyni adlı yüksəklik və kənd uğurunda savaş başlanır. Döyüş 12 gün davam edir, qarşı tərəf darmadağın edilir. Bu zəfər tarixə "Əsgəran zəfəri", "Əsgəran qələbəsi" kimi düşdü. General-mayor Həbib bəy Səlimov isə "Əsgəran qəhrəmanı" adlandırıldı.*

*12 günlük müharibədə Azərbaycan qoşunları Daşbaşı, Yengicə Mehtikənd, Qayabaşı, Baluca, Xanazax, Kyatik, Aran-Zəmin və Naxçıvanik kəndlərini düşməndən təmizlədi. Böyük dairəvi xəndəkdə, Kürd-Xanabad kəndində gedən döyüşlərdə özünü Qarabağ qoşunlarının baş komandanı adlandıran Deli Kazar öldürüldü. Əsgəran ətrafında gizlənən general Dro Kanayanın piyada alayları isə səngərlərini atıb qaçmağa başladılar. Beləliklə, Dəli Kazar və "General Dro" nun komandanlığı altında erməni birliklərini məğlub edərək Şuşa və Xankəndini azad etdi. Hərbi nazir S.Mehmandarov cəbhəyə gəlir və əsgərləri bu sözlərlə təbrik edir: "Qəhrəman əsgərlər! Mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə olmuşam. Fəqət sizin qədər qəhrəman əsgərlərə az-az təsadüf etmişəm... Siz canınızla gənc Azərbaycan ordusunun namusunu qorudunuz!"*

*General döyüş zamanı Bakıya göndərdiyi raportlarda yazırdı " hər tərəf erməni meyidləri ilə doludur, qoşunların əhval-ruhiyyəsi əladır, düşmən çoxlu itgi verib, təkcə Xaraşurtda 60-dək erməni meyidi var. "*

*Onu Azərbaycanın xilaskarı adlandırmaq olar. Ruslara qarşı döyüşlərdə dəfələrlə onları məğlub edib, ermənilər onun adı gələndə qaçıb gizlənməyə yer axtarıblar. Ermənilərin əfsanə adlandıqları general Dro onun adı gələndə döyüşə girməkdən boyun qaçırıb. Fərrux yüksəkliyində qaldırdığı üç rəngli bayraq Şuşa və Xankəndində görünürdü.*

*Həbib bəy haqqında çox yazıblar, təkrar etmək istəmirəm. Sadəcə qısa olaraq yazmaq istəyirəm ki, məhz Xankəndinə gedən yolun Fərruxdan keçdiyini bilən General Həbib bəy o zaman böyük qələbə qazanıb buranı azad etmişdir. Sonra rus terroru onu güllələdib öldürsə də tarixdə Xankəndinin azad olunmasının bünövrəsinin Fərrux yüksəkliyindən başladığı addımı bizə miras olaraq qalmışdır. General Həbib bəy Səlimovdan sonra nəhayət tarix təkrarlanır və Xankəndiyə gedən əsas yol Fərrux yüksəkliyi yenidən bizdədir...*

## Delyaginin "Azərbaycanı bombalayaq" təxribatına Kremldən "ipək" kimi açıqlama

**Xəbər verdiyimiz kimi Rusiya dövlət telekanalında - "Rossiya 1" də yayımlanan "60 dəqiqə" verilişində ölkəmizə qarşı təhdidlər səsləndirilib. Rusiya-Ukrayna müharibəsinin şərh olunduğu proqramda mövzu birdən-birə Qarabağda baş verən son hadisələrə tərəf yön dəyişdirib. Elə bu zaman Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov Dövlət Dumasının deputatı Mixail Delyagin "Azərbaycanı bombalayaq" deyə təkliflə çıxış edib**

Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov Mixail Delyaginin Azərbaycanla bağlı təxribatçı çıxışına münasibət bildirib. Adalet.az xəbər verir ki, o keçirdiyi mətbuat konfransında bununla bağlı sualı cavablandırıb. "Bu, şəxsi emosiyalarla əlaqədardır. Biz bu emosiyaları cilovlamağa və belə bəyanatlardan çəkinməyə çağırardıq, xüsusən də bizim tərəfdaşlarımıza münasibətdə. Azərbaycan tərəfdaş dövlətlər kateqoriyasına aiddir", - deyə cavab verib.

Qeyd edək ki, Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sergey Markov Rusiya Dövlət Dumasının deputatı Mixail Delyaginin Azərbaycanı bombalamaqla bağlı bəyanatına sərt reaksiya verib.

Sabiq deputat bu barədə öz teleqram hesabında yazıb. O bildirib ki, Delyaginin bu bəyanatı Rusiyanın siyasətinə ziddir:

"Dövlət Dumasının deputatı Mixail Delyaqinin Rusiyanın Azərbaycanın neft infrastrukturuna zərbələr endirməsi ehtimalı ilə bağlı bəyanatı Rusiya rəhbərliyinin siyasətinə tamamilə ziddir. Bu bəyanatlar məsuliyyətsizlikdir və Rusiyanın maraqlarına əksdir".

***P.S.** Əslində Rusiyanın müttəfiqinə, uzun illərdir ki, tərfdaşı, diplomatik, mədəni, ticari və digər əlaqələri olan Azərbaycana qarşı Rusiya rəsmisinin belə təxribarçı cümlələrdən istifadə etməsi cəzasız qalmamalıdır. Ən azından mandatı alınmalı, DUMA-dan qovulmalıdır. Hesab edirik, digər qadağalardan Delyaginə qarşı istifadə olunacağını düşünməkdə haqlıyıq.*

**Əntiqə RƏŞİD**

# ORTA İXTİSAS TƏHSİLİ İNKİŞAFIN YENİ MƏRHƏLƏSİNDƏ

**Təhsil xalqımızın hansı elmi zənginliklərə sahib olduğunu ümumdünya müstəvisində müəyyən edərək, dünyaya təqdim olunmasını tələb edir. Bu təqdimatın düzgün çatdırılması isə dövlətimizin təhsili daim diqqət mərkəzində saxlaması və təhsil sahəsində verilən fərman və sərəncamlara söykənir. XXI əsr ölkəmizin milli təhsil tarixində islahatlar əsri kimi qiymətləndirilir,Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası Azərbaycanda yüksək və qabaqcıl mövqeyli təhsil sisteminin formalaşmasını nəzərdə tutur.**

Respublikanın orta ixtisas məktəbləri içində xüsusi çəkisi olan Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin pedaqoji kollektivi Ümummilli liderimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamını devizə çevirərək öz fəaliyyətini dövlətimizin təhsil siyasətinə uyğun olaraq qurur və inkişaf etdirir. Hazırda kollecə səriştəli, peşəkar, novator, yüksək idarəçilik qabiliyyətli pedaqoq İrşad Abbasov rəhbərlik edir. O, idarəetmədə aşkarlıq, şəffaflıq, demokratiklik prinsiplərini əsas tutaraq kollecdə sağlam mənəvi-psixoloji və pedaqoji atmosfer yaratmışdır. Bu atmosferin davamlılığı istiqamətində ardıcıl iş aparılır. Kollecdə idarəçilik və fəaliyyət mexanizmi kollecin tərəqqisində müasir standartların tətbiqini nümayiş etdirir.

Kollecdə əyani və qiyabi şöbədə 14 ixtisas üzrə 1200 nəfər tələbə təhsil alır, öz işini, peşəsini günün və dövlətin tələbləri səviyyəsində qura bilən və yüksək pedaqoji ustalıq nümayiş etdirən 120 müəllim fəaliyyət göstərir. Kollecin direktoru kimya üzrə fəlsəfə doktoru İrşad Abbasovun bildirdiyi kimi burada dövrün tələb-təklif münasibətlərinə cavab verən ixtisasların artırılması əsas prioritet məsələ kimi nəzərdə tutulur. Bu isə təsərrüfat əhəmiyyətli ixtisaslar üzrə təhsil almaq istəyən tələbələrin sayına əhəmiyyətli dərəcədə təsir göstərir. Zootexniklik, baytarlıq, bağçılıq və bostançılıq, aqronomluq ixtisasları üzrə tələbə qəbulu sayı ilbəil artır. Bu da kollecin dövlətin iqtisadi və təsərrüfat inkişafına cavab verən kadrların yetişməsində necə rol oynadığını bir daha sübut edir. Kollecə qəbul olunan tələbələrin qiymət göstəricisinin 600-dən artıq olması, respublikanın müxtəlif guşələrində, hətta Bakıda yaşayan abituriyentlərin məhz bu təhsil ocağını seçməsi, ali məktəbə qəbul olunan məzunlarımızın çoxluğu, işə qəbul imtahanlarını uğurla verib fəaliyyət göstərən tələbələrimizdən gələn xoş soraqlar kollecin nüfuzunu gündən-gündən artırır.

***Milli və ümumbəşəri dəyərlərə, xalqının milli ənənələrinə, demokratiya prinsiplərinə, azərbaycançılıq ideologiyasına sadiq olan, yenilikləri qiymətləndirməyi bacaran, sistemləşdirilmiş bilik, bacarıq, vərdişlərə yiyələnən, ictimai həyat və səmərəli fəaliyyətə hazır olan vətəndaşlar yetişdirmək kollecin hər bir pedaqoji işçisinin məqsədi və məramıdır.***

Təhsilalanlarla şəxsiyyətyönümlülük istiqamətində işlərin aparılması müvəffəqiyyətin artmasına, qarşılıqlı anlaşma mexanizminin tətbiqinə imkan yaradır. İstər əyani, istərsə də qiyabi şöbələrin fəaliyyət istiqamətləri pedaqoji prosesin aparılmasında operativliyi təmin edir. Tədris-tərbiyə işləri üzrə direktor müavinlərinin fəaliyyət mexanizmində olan




vahidlik prinsipi kollec kontingentinin işinə müsbət təsir göstərir. Kollecdə qiymətləndirmə və monitorinq şöbəsi daim yoxlamalar apararaq hər kəsi işində məsuliyyətli olmağa dəvət edir. Kollecdə əyani, qiyabi şöbə və təcrübə rəhbərləri, monitorinq şöbəsi, metodiki şura və nüfuzu kafedra səviyyəsinə qaldırılmış fənn birləşmə komissiyaları da öz işlərini lazımi səviyyədə qurmağı bacarırlar.

***Pedaqoji şura və fənn birləşmə komissiyalarının iclaslarında dinlənilən metodiki məruzələr, yeniliklər, təhsildə olan innovasiyaların tətbiqi və s. ilə bağlı olan müzakirələr, qarşılıqlı dərsdinləmələr və açıq dərslər qabaqcıl pedaqoji təcrübənin yayılmasında öz töhfəsini verir. Bu da kollecdə səmərəli fəaliyyət planına xidmət edir, pedaqoji prosesin məhsuldarlığının günün tələbləri səviyyəsində təşkilinə stimul yaradır.***

Kollecdə elmi-praktik konfransların davamlı olaraq keçirilməsi ənənəvi hal almışdır. Bu konfransların təşkilinə müəllim və tələbələrin cəlb olunması, aidiyyatı üzrə konfrans zalının hazırlanması və onun tərtibatı daim diqqət mərkəzindədir. Son bir neçə il ərzində kollecdə keçirilən İ.Nəsimi, N.Gəncəvi, H.Araslı, M.Cəfərov, M.Hadi, C.Məmmədquluzadə, Lütfi Zadə, Aşıq Ələsgər, N.Tusi və bir çox görkəmli şəxslərin həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfranslar, tarixi günlərə dair tədbirlər, bilik yarışları artıq adi hala çevrilmişdir. Kollec rayonda keçirilən tədbirlərdə də fəal iştirakı və mövqeyi ilə seçilir.

***44 günlük müharibə dövründə də kollecdə vətənpərvər bir mühit var idi. Döyüşçüləri qələbəyə ruhlandıran "Əsgərə məktub"lar, döyüşçülərimizə maddi köməklik, qələbəyə inam yaradan konfrans və tədbirlər, sosial şəbəkələrdə müəllim və tələbə kollektivi tərəfindən edilən paylaşımlar sanki kolleci bir arxa cəbhəyə çevirmişdi. Böyük Qələbədən sonra da bu ab-hava davam etməkdədir. Müharibədə iştirak etmiş müəllim və tələbələrin iştirakı ilə keçirilən konfranslar, bütün şəhidlərimizin, o cümlədən, şəhid tələbələrimizin ruhuna göstərilən sonsuz ehtiram kollekivimizi bir yumruq kimi birləşdirdi.***

Qələbədən sonra Zəfər Gününə, quruculuq işlərinə, Şuşa Bəyannaməsinə, son illərdə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən böyük sosial-siyasi və iqtisadi inkişafa həsr olunmuş tədbirlər geniş yer almışdır.

Respublikamızda baş verən hərbi, siyasi, iqtisadi, mədəni məsələlər və problemlər konfransların müzakirə və təqdimat predmetidir. Bu isə hər birimizin vətəndaşlıq borcumuzdur. Kollecin pedaqoji kollektivi dövlətimizdə və cəmiyyətimizdə baş verən hər bir hadisə və yeniliklərə münasibət bildirməyi və qiymətləndirməyi özünə borc bilir. Vətən müharibəsində müəllimlərimizin cəbhəyə könüllü gedişi, tələbələrimizin müharibədə iştirakı və qəhrəmancasına şəhidlik zirvəsini fəth etməsi qürurumuzdur. Kollecdə mütəmadi olaraq şəhid ailələri və qazilərlə görüşlər keçirilir, onlara mənəvi dəstək göstərilir.

Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci özünün kitabxana fondu ilə də fərqlənir. Elektron kitabxananın təşkili intellektual səviyyənin inkişafına təkan verir, oxucuların sayının artmasına səbəb olur. Kollecdə intellektual yarışların keçirilməsi həm pandemiya dövründə, həm də ənənəvi təlim zamanı tələbələrin dünyagörüşünün zənginləşməsinə, yaradıcı və məntiqi təfəkkürünün inkişafına kömək edir.

Kollecdə maddi-texniki bazanın genişləndirilməsi və təmir-bərpa işləri istiqamətində həyata keçirilən tədbirlər də diqqəti cəlb edir. Uzun illərdən bəri həllini tapa bilməyən istilik təchizatının yenidən qurulması kollec rəhbərliyinin məsələyə ciddi önəm verməsinin və prinsipial mövqeyinin nəticəsidir.Təhsil ocağına yeni avadanlıqlar gətirilmiş, daxili imkanlar hesabına təmir-bərpa işləri aparılmış, sinif otaqları, su-kanalizasiya sistemi, idman zalı, yeməkxana və kitabxana təmir olunmuş, yeni plastik qapı və pəncərələr quraşdırılmışdır.

Müasir dövrdə təhsilin Avropa ineqrasiya innovasiyaların tətbiqini tələb edir. Bu isə auditoriyaların internet şəbəkəsi və avadanlıqları ilə təchizi şəraitində mümkündür. Bu sahədə də müəyyən işlər görülmüşdür. Hazırda təhsil müəssisəsində iki kompüter sinfi mövcuddur və informatika dərslərində tələbələr buradakı 10 kompüterdən əyani vəsait kimi istifadə edirlər. Bu günlərdə daha 5 kompüter dəsti alınaraq müəllim və tələbə kollektivinin istifadəsinə verilmişdir. Bundan əlavə, tələbələr günün ikinci yarısında kompüter proqramları üzrə təşkil edilən məşğələlərdə iştirak edirlər. Təhsil müəssisəsi internetə qoşulmuş kompüter mərkəzində xarici ölkələrin ali və orta ixtisas məktəbləri ilə müntəzəm əlaqə saxlayır, onların tədris proqramları öyrənilir və tətbiqi üzrə iş aparılır.

Kollecdə imtahanların yüksək səviyyədə həyata keçirilməsi üçün gözəl şərait yaradılmışdır. Belə ki, 200 tələbənin eyni vaxtda imtahan verməsi üçün geniş imtahan zalı hazırlanmışdır ki, bu hətta pandemiya şəraitində xeyli sayda tələbənin məsafə gözlənməklə imtahan verməsinə imkan yaradır. Kredit sisteminə uyğun olaraq tələbələrin biliyi 100 balla qiymətləndirilir. İmtahanlarda şəffaflığı və obyektivliyi təmin etmək üçün nəzarət komissiyaları yaradılmış, bu komissiyalarda valideyinlərin, tələbələrin, ictimai təşkilat nümayəndələrinin iştirakı təmin olunmuşdur.

**Kollecin maddi - texniki bazasının gücləndirilməsi, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılması, yüksək ixtisaslı, peşəkar kadrların çoxluğu bu təhsil müəssisəsinin respublikanın ən qabaqcıllarından birinə çevirmişdir. Bütün bunlar və pedaqoji kollektivin öz işinə məsuliyyət və məhəbbətlə yanaşması Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin ali təhsil ocağına cevrilməsini zəruri edir. Bu həm göyçaylıların, həm də region əhalisinin ən böyük arzusudur.**

**Natəvan Qədirova,**
**kollecin müəllimi**

*Emin Piri*

## Andranikin qulağıyla kar olan dünya



***Çoxlarına təqvimdən başqa bir anlamı olmayan 31 mart. Faciə faciəni unutdurur. Necə ki, Qarabağ və digər məsələlərdən, faciələrdən sonra mart kimi olaylar bir qədər kölgəyə çəkilmiş oldu. Yalnız dövlətin və az qismdə şəxsin sayıqlığı nəticəsində az-çox gündəmə gətirilir.***

***Bir faciəni unutmaq digər gələcək faciənin müjdəçisi olur. Eynilə, mart hadisələri və sonrakı onillər ərzində yaşadıqlarımız.***

***Bu tip soyqırımlar xəstəlikdir. Bəli, məhz xəstəlik. Yoluxucu xəstəlik. Bir beynə düşdüsə minləri, on minləri, hətta milyonları yoluxduracaq.***

***Əşi, dünyanın nə vecinə...***

***Beyinlərdən beyinlərə, ruhlardan ruhlara yayılan, insanı zombiləşdirən, şovinizmdən belə daha qorxulu xəstəlik. Bu yoluxucu düşüncə xəstəliyi bir dəfə beyinə düşdüsə onu nə hansısa vaksinlə sağalda bilə, nə də kökünü kəsə bilərsən. Yalnız bir yolu var, o da həmin beyni dəyişməkdir.***

***"Erməni soyqırımları" ilə baş qatan dünyanın bu fəaliyyətinin heç də erməni sevgisindən də olduğunu düşünmürəm. Bu canfəşanlıq türk və müsəlmana olan nifrətdəndir. Lap bu cümlədən türkü də çıxaq, müsəlmanı da. Gələcəkdə özündən artıq güc ola biləcəyini düşündükləri bütün millətlərə, cəmiyyətlərə qarşı.***

***Nə 1918-ci illərdə on minlərlə müsəlmanın qətliamı, nə də Qarabağdakı faciələr önəmli deyil onlara.***

***Hə, ara-sıra ədalətli qərarların da şahidi oluruq. Keçmiş Yuqoslaviyada baş verənlər haqqını müəyyən dərəcədə tapdı.Günahkarlar cəzalandırıldı. Buna qısqanclıqla yanaşmıram. Ədalətin bərpasıdır, amma qərbin Yuqoslaviya rəhbərliyinə qarşı qıcığı olmasaydı, əmin olun, o hadisələr də sadəcə statistikadan başqa bir şey olmayacaqdı.***

***İndi nə etməli? Gözləməliyik ki, qərb nə zaman erməni siyasətçilərini, rəhbərlərini, o hadisələrin günahkarlarının varislərini şantaj etmək istəyəcək?***

***BMT-nin nə bilim qətnamələri var idi işğal olunmuş rayonlarla bağlı...O qətnamələr nəyi həll etdi və ya qətnaməni həyata keçirməkçün dünya özü nə etdi?***

***Hə, həmin ölkələr nəsə etməyə çalışır, yeni bəyanatlar verir. Amma bizim əleyhimizə...***

***Andranikin qulağıyla kar olan dünya öz dediklərini belə eşidə bilmir. Bərkdənmi qışqıraq?***

***Jestika diliylə onlara başa salmağımız isə gecdir. Çünki onda da gözlərini yumacaqlar.***

*Eminquey*

## Narkobaronlar aldıqları malın pulunu necə ödəyirlər?



*Narkobaronlar aldıqları malların pulunu necə ödəyirlər?*

*Düşünün.*

*Mal Cənubi Amerikadan gəmiyə yüklənir.*

*Okeanın bu tayına çatana qədər macəra dolu yol...*

*Narkobaron pulu çantayla versə bir dərd, yolda malın başına hər cür iş gələ bilər.*

*Yox, əgər "ölkəmə sağ-salamat çatandan sonra verəcəm" desə, necə yollayacaq?*

*Banklamı?*

*Ya da nisyə dəftərimi tutacaqlar? Ayın sonunda haqq-hesab etmək üçün...*

*Bu qara-qura aləmdə kim kimə necə güvənir, etibar edir?*

*Maraqlıdır.*



*"Pulu ver, malı al" prosesi necə baş tutur?*

*Əlbəttə ki bir yolunu tapıblar.*

*Məsələn, iki gün öncə "Hürriyyət" qəzetində Fevzi Kızılkoyunun hazırladığı bir xəbər vardı.*

*Ankara polisi düz 9 ay əvvəl əməliyyata başlayıbmış. Tolqa adlı bir narkobaronun dalınca düşüblərmiş. Bizim bu Tolqa ta Kolumbiyaya qədər gedibmiş. Babat bir malı düz ana mənbəyindən almağa. "Cali Karteli" adlı narkotikçi qrupu ilə bazarlığını edibmiş. Kokaini hazırlayıbmışlar. Gəmiyə yükləyəcəkmişlər. Elə bu məqamda... Biinsaf Cali Tolqanı girov götürübmüş.*

*Kokain Türkiyəyə çatsın, pul Caliyə çatsın, ona qədər Tolqa Calinin qonağıdır.*

*Düz 2 ay...*

*Ver pulu, al Tolqanı...*

*Demək ki, üsullardan biri bu imiş.*

*Bəs başqa?*

*Dünyanım bir nömrəli kokain baronu El Çapo var idi.*

*İndi Amerikadadır.*

*Onun Meksikadan Amerikaya mal göndərmək üçün qəşəng bir üsulu varmış.*

*Kokaini balıq konservalarının altında gizlədirmiş.*

*Konserva qablarının altında kokain üçün yer düzəldirmiş.*

*Narkotik axtaran itlər balıq qoxusundan kokaini ayırd edə bilmirlərmiş.*

*Yanına da bibər turşusu, itlərin burnu qoxudan çürüdümü? Vəssalam!*

*Uzun müddət bu oyunu çözə bilməmişdilər.*

*Bu Tolqa El Çapodan təsirlənibmiş. Kokaini banan, çiçək, qəhvə qutularının içində gizlədirmiş.*

*İtlər yenə çaş-baş...*

*Tolqa heç...*

*Ankara polisi onsuz da bunu qarabaqara izləyirdilər.*

*Tutublarmış. 71 kilo tərtəmiz kokain...*

*Dünya narkotik hesabatlarına baxsaq görərik ki, narkotik maddələrin daşınmasında gəmilərin payı 78 faizdir.*

*Hətta bəzən gəminin sahibinin xəbəri belə olmur.*

*Bir kapitan, iki gəmi işçisi, vəssalam!*

*Gəmilərin altına qaynaqla xüsusi bölmə-zad düzəltdirən var.*

*Gəminin dənizin içində qalan hissəsinə xüsusi seyf-filan düzəltdirən var.*

*Təbii ki təkcə gəmilər deyil...*

*İkinci yerdə şəxsi təyyarələrdir.*

*Məşhur müğənnilərin xarici ölkələrdən verdiyi mənasız, məzmunsuz konsertlər.*

*Bu mənasız konsertlərə getmək üçün o boyda benzin işlədən təyyarələr.*

*Şəxsi təyyarələrlə baş tutan qəribə gəzintilər.*

*Bunlar artıq şübhəlidir.*

*Neyləyək?*

*Şübhələnməyək?*

*Yapışın narkotik hesabatlarını hazırlayanların yaxasından...*

# "Allah belə deyib deyə yox, Allah burda nə demək istəyib..."

***İnsanın ta qədimlərdən bu günə qədər dini baxışları hər zaman müzakirə mövzusu olaraq qalır. İnsan əsrlərdir ki, özünü sorğulaya - sorğulaya bu günlərə gəldi çıxdı. Bir sözlə din və dinlər haqqında insan düşüncəsində uzun illərdi cavablanmayan suallar hələ də qalır. Mövzumuz din mövzusudur. Xüsusilə ilə də ölkəmizdə daha çox insanın tapındığı İslam dini barədə danışacağıq. Müsahimimiz tanınmış ilahiyyatçı Elşad Miridir.***

**- İstərdim ki, ilk olaraq bir az keçmişə qayıdaq. O keçmişə ki, siz o illərdə ibtidai və orta təhsil almısınız. Bioqrafiyanızda qeyd olunub ki, 1985 - 1992 ci illərdə şagird olmunuz. Burdan belə qənaətə gəlmək mümkündür ki, sizin məktəb illərinizin əsas hissəsi Sovet İttifaqının dövrünə təsadüf edib. Nəzərə alsaq ki, Sovet hökuməti Ateizmi xüsusi təbliğ edirdi. Çox maraqlıdır ki, dinlərin,ələxsus da İslam dinin ciddi basqıya məruz qaldığı bir cəmiyyətdə siz necə oldu ki, ilahiyyatçı olmağa qərar verdiniz?**

- Qeyd edim ki, həmin dövrlərdə hər nə qədər ateizm olsa da mənim həm yaşım həm də dünyagörüşüm uşaq illərim o dövrə təsadüf etdiyinə görə o vaxt hər hansısa ciddi məsələni müzakirə etmək mümkün deyildi. Amma dinlə bağlı maraqlı bir məsələ olmuşdu. Əmim Rusiyanın Volqaqrad şəhərində yaşayırdı və təhsil alırdı. Və mənim onun yanında tətillərdə qalırdım. Digər bir qohumumuz Nalçik şəhərində yaşayırdı.

Bir dəfə elə oldu ki, həmin qohumuzla mən bir toy məclisində iştirak etdik. Mən sonradan bildim ki, həm toy orda yaşayan yəhudilərin toyu imiş. Və mənə maraqlı olan məqamlarla bağlı o toyda gördüklərimlə bağlı suallar verdim. Təbii ki, belə məsələlər hər zaman uşaqların beynində də xeyli suallar yarad bilir. Çünki Azərbaycanda toy adətləri başqa cür olur burd isə tamam fərqli.. Daha sonra mən Azərbaycana qayıdanda atam bir videokasset alıb gətirmişdi. O zamanlar yeni filmlər kasset vasitəsi ilə izlənirdi. Həmin film "Peyğəmbər" adlanırdı. Baş rolda Entoni Quinin çəkildiyi bu filmə mən uşaq ikən baxanda çox təsirləndim. Amma ən maraqlıdı təbii ki, peyğəmbəri filmdə görə bilməməyim idi. Çünki filmdə onun üzünü göstəmirdilər. Mən atama bu barədə sual verdim. Lakin atamın dini bilikləri çox olmadığına görə mənə lazımı izah verə bilmədi.

Mən sual verdim ki, ata bəs niyə peyğəmbəri göstərmirlər? Atam izah edirdi ki, yəqin ki,peyğəmbər gözə görünməyib. Amma beynimdə suallar yenə səngimirdi. Bəs öz uşaqlarınadamı görünmürdü peyğəmbər? Mən filmə təklikdə yenə də baxdım. Filmin təsirinə düşmüşdüm. Hətta yuxu görmüşdüm. Yuxuda mənə elə gəldi ki, peyğəmbəri gördüm. Təbii ki, bu filmin təsirindən və mənim dinə marağımdan irəli gəlirdi. Uşaqlıqdan dinə marağım hədsiz idi. Hətta Universitetə qəbul olanda tam soruşdu ki, qəbul olmusanmı? Təbrik etmək olarmı? - Dedim bəli - Dedi bəs hara qəbul olmusan? Dedim ki, İlahiyyata. Dedi bəs bu nədir? Dinlə bağlı olduğunu dedim təbii ki. Dedi ki, bəs necə çörək qazanacaqsan? Dedim ki, ata sən bilirsən ki, mən dini uşaqlıqdan istəyirəm.

Allah sənin də canını sağ etsin ata, sən dəstək olarsan təhsilimi başa vuraram İnşallah.

**- Sizin fikrinizcə savadlı din xadimlərimizin, islamşünasların yetişdirilməsi üçün ölkəmizin təhsil sistemində nələr olmalıdır?**



- Təbii ki, insanın özündə şübhə yaranmırsa, o zaman həmin insan düşünmə qabiliyyətindən yoxsuldu. Və yaxud da hər hansısa məsələ ilə bağlı düşünmürsə , müzakirə etmirsə deməli ki, o insanın düşünmə qabiliyyəti məhduddu.

Məsələyə Allah deyib deyə anlayışla yox, Allah burda nə demək istəyib bizə - belə qəbul etməliyik Bəlkə digər ayələrlə mən bunun cavabını tapa bilərəm deyə bir düşünmək lazımdı. Əvvəllər araşdırmalar çox çətin idi. Bu gün isə əlimizdə çox geniş mənbələr var.

Texnoloji inkişaf var və s. Mən fikirləşirəm ki, bizdən əvvəlkilər din haqqında daha dərindən və aydın şəkildə həqiqətləri üzə çıxarıb bizə çatdırmalı idilər.

Yaxud da biz daha fərqli məsələləri daha fərqli məqamları araşdırardıq. Amma təəssüflər olsun ki, bu belə deyil. Yerigəlmişkən tələbəlik zamanı müəllimimiz olmuş bir Quran tərcüməçisi demişdi ki, biz bizdən əvvəlkilər bir - birilərindən oğurladılar biz də onlardan. Bunu deyəndə o mənim beynimdə bir işıq yandırdı sanki. Yəni mən o zaman dərk etdim ki, çoxları bir bilub əvvəllərdə. Məsələn bu gün Sünnülükdə Hənəfi məktəbini misal göstərə bilərik. İmam Əbu Hənəfi ilə bağlıdı.

Lakin o özü belə bir məshəb qurmayıb. Ona vəzifə təklif olunur lakin qəbul eləmir. Hakimiyyət dövründə həbs olunur sonra azad olunur. Həbsxanada ona sui - qəsd edilir.

Onun qisası üçün onun tələbələrindən bir nəfərin təşəbbüsü ilə İman Əbu Hənəfinin nüfuzundan yararlanaraq Hənəfilik təriqətini yaratmışdır. Lakin Quranda birmənalı olaraq bildirilir ki, Allahın buyruğuna ziddir. Quranda 43 -cü surənin 44- cü ayəsində deyilir ki, - "Yeganə sorğulayacağınız kitab Qurandır". Lakin yenə də bəzi adamlar təriqətlərə tapınır və hətta bəzən onu müqəddəsləşdirirlər.

**-Allah haqqında təsəvvürlər təbii ki, saysızdır. Əsrlər boyu insanlar müxtəlif formalarda Yaradıcı qüvvənin varlığına inam bəsləyiblər. Lakin dərketmə metodologiyası fərqli olsa da prinsipcə məqsəd eynidir. Bəs nə üçün İslam dini yaranandan sonra bütün bütlər məhv edildi?**

- Peyğəmbərimiz ilk gəldiyi zaman bütlərin qırılmasına çalışmadı. Hətta Kəbədə bütlərin olmasına baxmayaraq (300 - dən çox büt olub) peyğəmbər gedib orda ibadətini edib. Ordakı bütlər onu fikrindən yayındırmayıb.

Yalnız Kəbənin Rəbbinə sitayiş eliyib. Digər tərəfdən peyğəmbər bəs neylədi? İnsanların qəlblərində ilk növbədə bütləşmiş əngəlləri aradan qaldırmağa çalışdı. Bütlərin qırılması İslamın yayılmasının son dövrlərində idi. O da əsasən Kəbədəki bütlərin ərazidən çıxarılması idi.

Çıxarılarkən də təbii ki, zədələnirdi və qırılırdı. Bütpərəstlər də zamanla şahid olurdu ki, bu cansız heykəllərin nə faydası var nə də ziyanı. Yəni biz büt dediyimiz əslində o taxtadan, daşdan düzələn heykəllər deyil. İnsanların qəlblərində bütləşdirdiyi məsələlərdi. Bu gün də insanların bir - birini bütləşdirməsi var.

Misal üçün qadın kişini, kişi qadını bütləşdirir. Mənim simvolum və s. Məsələn adam var vəzifəni bütləşdirir.

Onun üçün vəzifədən çıxmaq ölümə bərabərdir. Bütün həyatının məhvi deməkdir. Adam var övladlarını bütləşdirir. Adam da var ki, Quranı bütləşdirir lakin bir dəfə də olsun Quranı oxumur. Yaxud da bu gün deyirik ki, hər şeyi güc həll edir. Bu halda biz gücü bütləşdiririk.

Qədimdə Misirlilərdə öküz anlayışı hakim idi. Onların bütləşdirdiyi bu idi. Sonra Fironları Tanrının nümayəndəsi yaxud da Tanrının oğlu kimi bütləşdirmişdilər. Ona toxunmaq olmazdı. Bu günümüzdə də İngiltərə kraliçasına əl uzatmaq belə olmaz o əl uzatmayınca. Bax bu da başqa bir bütləşdirmədi. Bilirsiniz ki, o dünyanın 15 ölkəsinin kraliçası sayılır. Ona görə də bu barədə daha yaxşı düşünüb içimizdəki bütləri qırmağa çalışmalıyıq.

- Bununla bağlı razıyam sizinlə həqiqətən. Azərbaycanda İlahiyyat sahəsində savadlı insanların olduğuna mən də şahidəm.

Bəziləri müəyyən məsələlərə görə cəsarət tapıb çıxış edə bilmirlər. Yaxud başqa müəyyən özlərinə görə bəhanələri var.

Mənim əsas fikrim odur ki, biz bizə öyrədilən ənənəvi din anlayışından sıyrıla bilək.

Çünki əzbərçilikdən qopmalıyıq. Biz bizdən əvvəlkilərin dediklərini onları bütləşdirərək olduğu kimi başqalarına təqdim etməməliyik. Çünki, din elə bir məhfumdur ki, hətta Quranda da deyilir ki, din bizim soruşmağımızı, dərindən analiz etməyimizi, fikirləşməyimizi bizdən tələb edir. Ona görə də məsələyə bu prizmadan yanaşmağımız lazımdı. Məsələn bu gün həqiqətən Fizika sahəsində və ya digər sahələrdə məsələn İsaak Nyutonun məsələsini həmin dövrə görə mükəmməl olan bir məsələni yəni bu gün orta məktəb şagirdləri bilirlər, dərk edirlər. Mən hesab edirəm ki, həmin İlahiyyatçılara Quran üzərində mütləq düşünmələrini istərdim.

Ayələrin düzgün tərcümələrinə diqqət eləsinlər. Quranla bərabər digər səmavi kitablar haqqında da öyrənsinlər. Mən ilahiyyatçıların həmişə təktərəfli olmamalarının tərəfdarıyam.

**- Sosial şəbəkələrdəki yazılarınızdan və müxtəlif vaxtlarda mediyaya açıqlamalarınıza əsasən mövqeyinizdən məlumdur ki, siz həmişə din mövzusunda obyektiv münasibət sərgiləmisiniz. Belə bir qənaət var ki, daha dərindən dini biliklərə yiyələndikcə xeyli ziddiyyətli məqamlar meydana çıxır. Yetərincə mübahisə doğuran nüanslar yaranır. Hətta bu ayələr və surələrlə də bağlı olur. Olubmu ki, daxilinizdə hansısa surə və ya ayəyə əsaslı şübhələr yaransın? Bu barə fikirlərinizi bilmək istərdim.**

- Çox gözəl, çox yerində bir sualdı. Birincisi İslam dinində çoxlu mənsəblərin olması reallıqdı. Düzdü çoxusu ancaq sünnü və şiyə haqqında bilir. Amma elə sünnülüyün də şiyəliyin də içində nə qədər mənsəblər və təriqətlər var. Hətta bu günə qədər gəlib çatmayan təriqətlər də var. Məsələn - Cəbriyyə və Cəhmiyyəni qeyd edə bilərik. Lakin dinlər arasında ən çox məshəbə mənsub olan din Xristian dinidir. Təxminən minə yaxın təriqət. Çoxlarının Xristian dininin yalnız Katolik, Provaslav və Protestantlardan ibarət olduğunu bilir. Lakin burda da xeyli təriqətlər mövcuddur. Amma Allah Quranda buyurur ki, firqələrə bölünməyin, qruplara bölünməyin.

Bu gün hansısa müsəlman özünü hər hansısa bir firqədədirsə Allahın əmrinə qarşı gəlmiş olur. Amma məshəblərin qurulması əslində bir məktəb kimi qurulub əvvəllərdə...

rini təkrarlayır. Təsəvvür edin ki, İbrahim peyğəmbər belə Allahın insanları təkrar necə yaradacağı barədə sorğular edib.

Yəni din daim sağlam düşüncə ilə sorğulana bilər. Və bu belə olmalıdır. Çünki peyğəmbərlərin də ürəklərində rahatlıq, təskinlik olmasa başqa insanlara həqiqəti necə çatdıra bilər?

**- Maraqlıdır ki, niyə İslamda bu qədər çox təriqət yaranıb? 70 - dən çox təriqətin mövcud olduğunu bilirik. Quran kitabında bir neçə ayələr var ki, bu barədə fikirləriniz çox maraqlıdır. Məsələn Qurani - Kərimdə bir ayədə belə deyilir. " Sizin dininiz sizə, mənim dinim özümə ". Və yaxud da " Dində məcburiyyət yoxdur". Başqa bir ayədə isə qeyd olunur ki, " Kim İslamdan başqa bir din seçərsə, axirətdə zərər çəkənlərdən olacaq". " İslamı seçməyənlər axirətdə cəzal alacaq ". Bütün bunlar biri-birinə daban - dabana zidd fikirlər deyilmi? Bu barədə necə açıqlama verə bilərsiniz!**

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

**Forma № 1S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: ____"Zaman Sığorta və Təkrarsığorta üzrə Broker" MMC
Hesabat dövrü 01 Yanvar 2021 - 31 Dekabr 2021

*manatla*

| | AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I.UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| A1 | **Torpaq, tikili və avadanlıqlar** | 339823.18 | 289086.00 |
| A2 | **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| A3 | **Daşınmaz əmlaka investisiyalar** | | |
| A4 | **Qeyri-maddi aktivlər** | 1424426.64 | 1418494.00 |
| A5 | **Təxirə salınmış vergi aktivləri** | | 24724.00 |
| A6 | **Uzunmüddətli debitor borcları** | | |
| A7 | **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| A8 | dövlət qiymətli kağızları | | |
| A9 | qeyri-dövlət qiymətli kağızları | | |
| A10 | sair maliyyə aktivləri | | |
| A11 | **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| A12 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| A13 | **Sair aktivlər** | | |
| B1 | *Cəmi uzunmüddətli aktivlər* | 1764249.82 | 1732304.00 |
| | II . QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| C1 | **Ehtiyatlar** | 2284.93 | 38315.00 |
| C2 | **Debitor borcları:** | 1228144.69 | 1619982.00 |
| C3 | birbaşa sığorta üzrə | 201768.80 | 107112.00 |
| C4 | **təkrarsığorta əməliyyatları üzrə :** | 1024517.08 | 1453945.00 |
| C5 | - təkrarsığortaçı üzrə | 836654.13 | 1042468.00 |
| C6 | - təkrarsığortalı üzrə | 187862.95 | 411477.00 |
| C7 | asılı təşkilatlar üzrə | | |
| C8 | büdcə üzrə | 1858.81 | |
| C9 | iddia tələbləri üzrə | | |
| C10 | işçi heyəti üzrə | | |
| C11 | sığortalılara verilən borclar üzrə | | |
| C12 | sair debitorlar | | 58925.00 |
| C13 | **Pul vəsaitləri və onların ekvivalentləri:** | 905669.17 | 403614.00 |
| C14 | kassa | 193.63 | 341.00 |
| C15 | hesablaşma hesabı | 240518.19 | 70543.00 |
| C16 | valyuta hesabı | 623749.78 | 315730.00 |
| C17 | depozit hesablar | | 17000.00 |
| C18 | sair pul vəsaitləri | 41207.57 | |
| C19 | **Qısamüddətli maliyyə aktivləri:** | | |
| C20 | dövlət qiymətli kağızları | | |
| C21 | qeyri-dövlət qiymətli kağızları | | |
| C22 | sair maliyyə aktivləri | | |
| C23 | **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| C24 | həyat sığortası sahəsi üzrə | | |
| C25 | qeyri-həyat sığortası sahəsi üzrə | | |
| C26 | **Sair qısamüddətli aktivlər:** | 29744.68 | 28218.00 |
| C27 | gələcək hesabat dövrlərinin xərcləri | 11944.68 | 5031.00 |
| C28 | verilmiş avanslar | 17800.00 | 18214.00 |
| C29 | təhtəl hesablar | | 4973.00 |
| C30 | **Sair aktivlər** | 4732.00 | 4732.00 |
| D1 | *Cəmi qısamüddətli aktivlər* | 2170575.47 | 2094861.00 |
| E1 | **CƏMİ AKTİVLƏR** | 3934825.29 | 3827165.00 |

| | KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | I. KAPİTAL | | |
| F1 | **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 14000.00 | 255100.00 |
| F2 | **Emissiya gəliri** | | |
| F3 | **Geri alınmış kapital (səhmlər)** | | |
| F4 | **Kapital ehtiyatları:** | | |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| F6 | digər kapital ehtiyatları | | |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 1728846.95 | 1836223 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | 980750.09 | 443377.00 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 748096.86 | 1392846.00 |
| F11 | Elan edilmiş dividendlər | | |
| G1 | *Cəmi kapital* | 1742846.95 | 2091323.00 |
| | II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| H1 | **Sığorta ehtiyatları:** | | |
| H2 | Həyat sığortası sahəsi üzrə : | | |
| H3 | Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| H4 | **Qarşısıalınma tədbirləri fondu** | | |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| H7 | **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| H8 | **Kreditor borcları :** | 0.00 | 0.00 |
| H9 | əməyin ödənilməsi üzrə | | |
| H10 | büdcə üzrə | | |
| H11 | sosial sığorta və təminat üzrə | | |
| H12 | digər məcburi ödənişlər üzrə | | |
| H13 | asılı təşkilatlar üzrə | | |
| H14 | sair kreditorlar | 0.00 | 0.00 |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | | |
| H16 | gələcək hesabat dövrünün gəlirləri | | |
| H17 | alınmış avanslar | | |
| H18 | **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | |
| H19 | təkrarsığortaçı üzrə | | |
| H20 | təkrarsığortalı üzrə | | |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| H22 | **Sair öhdəliklər** | | |
| I1 | *Cəmi uzunmüddətli öhdəliklər* | 0.00 | 0.00 |
| | III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| J4 | **Kreditor borcları:** | 536073.55 | 591847.00 |
| J5 | əməyin ödənilməsi üzrə | 0.00 | |
| J6 | büdcə üzrə | 31268.79 | 13855.00 |
| J7 | sosial sığorta və təminat üzrə | 0.00 | |
| J8 | digər məcburi ödənişlər üzrə | | |
| J9 | asılı təşkilatlar üzrə | | |
| J10 | sair kreditorlar | 504804.76 | 577992.00 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | 1179918.56 | 1037623.00 |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | 1179918.56 | 1037623.00 |
| J13 | alınmış avanslar | 0.00 | 0.00 |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 475986.23 | 106372.00 |
| J15 | **Sair öhdəliklər** | | |
| K1 | *Cəmi qısamüddətli öhdəliklər* | 2191978.34 | 1735842.00 |
| L1 | *CƏMİ ÖHDƏLİKLƏR* | 2191978.34 | 1735842.00 |
| M1 | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 3934825.29 | 3827165.00 |
| N1 | Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Baş Direktor** **Əhmədov Şahin**

M. Y.

**Maliyyə Direktoru** **Əfəndizadə Tutu**

**Forma № 2S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı:_"Zaman Sığorta və Təkrarsığorta üzrə Broker" MMC
Hesabat dövrü 01 Yanvar 2021 - 31 Dekabr 2021
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | |
| A2 | birbaşa sığorta üzrə sığorta haqları | |
| A3 | təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| A4 | sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| A5 | təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| A6 | **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | |
| A8 | **Subroqasiya gəlirləri** | |
| A9 | **Sair gəlirlər** | 2052036.00 |
| B1 | **CƏMİ GƏLİRLƏR** | **2052036.00** |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | **0.00** |
| C2 | sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| C3 | qaytarılan sığorta haqları üzrə | |
| C4 | tənzimləmə xərcləri | |
| C5 | təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| C6 | qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| C7 | sığorta fəaliyyəti üzrə sair xərclər | |
| C8 | **İşlərin aparılması xərcləri** | 1608659.00 |
| C9 | **Sair xərclər** | 0.00 |
| D1 | **CƏMİ XƏRCLƏR** | **1608659.00** |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | 443377.00 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | 0.00 |
| E3 | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 443377.00 |
| E4 | **Mənfəət vergisi** | 0.00 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 443377.00 |

**Baş Direktor** **Əhmədov Şahin**

M. Y.

**Maliyyə Direktoru** **Əfəndizadə Tutu**

### *Azərbaycanlı yazıçının monopyesi Türkiyədə səhnələşdirilib*




***Azərbaycanlı yazıçı Ülviyyə Heydərovanın müəllifi olduğu monopyes Türkiyədə səhnələşdirilib. "Uşaqlıq" monopyesinin quruluşçu rejissoru Vaqif İbrahimoğlunun tələbəsi Rasim Aşındır. Əsər Malatya şəhərində səhnəyə qoyulub. Baş rolun ifaçısı Malatya Bələdiyyə Teatrının aktrisası Hatice Görgeçdir. Əsəri türk dilinə Humay Yılmaz tərcümə edib.***

***Emin Piri***

**Elan**

**Azərbaycan Dövlət və Radio QSC-nin işçisi Bayramova Günay Asif qızına verilmiş iş və buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Başsağlığı**

Məzahir Əhmədoğlu **Faiq Qismətoğluna** qardaşı **Elxanın** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daşdəmir Əjdəroğlu **Faiq Qismətoğluna** qardaşı **Elxanın** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Film yazarı Soner Sert: "Azərbaycanda film, serial və ya hekayə yazmaqla bağlı canlı seminar keçirmək istəyirəm"

***Əməkdaşımız Şəlalə Camal Türkiyənin kino və yazı aləminin məşhur simalarından biri olan, ssenarist, yazıçı Soner Sertlə həmsöhbət olub. Müsahibə ortaq Azərbaycan türkcəsi ilə alınıb. Bu isə bir millət, iki dövlət olmağımızın əyani göstəricisidir. Onunla olan maraqlı söhbəti diqqərinizə çatdırırıq.***

**- Soner bəy, salam. Sizi Azərbaycanda düşünürəm ki, bir çox insan tanıyır. Kitablarınız bizim ölkədə sevilərək oxunur. Siz özünüzü bizə necə tanıdardınız? Bu barədə ətraflı məlumat verərdiniz.**

- 2011 - ci ildə Marmara Üniversitesi Güzel Sanatlar Fakültesi'nde Sinema-Televizyon Bölümü'nden məzun oldum. Ardından Dokuz Eylül Üniversitesi Güzel Sanatlar Fakültesi Film Tasarımı Bölümü'nde sizin dil ilə söyləsək magistr təhsili aldım.

Kariyerim boyunca çoxlu qısa və sənədli film çəkdim. "Bunlardan Köprü" (2012), "Baba" (2014), Ses (2015), Hastabakıcı (2017) ve "Alarga" (2018) ile toplamda 400 - e yaxın Beynəlxalq festivalda iştirak etdim, 60 - dan çox mükafat aldım. Bu müddət də "Yönetmenler İlk Filmini Anlatıyor" (2018) və "Devletsiz Bir Ulusun Sineması" (2019) isimli film kitablarını qələmə aldım. 2019 - cu ildə "Duvar" adında olan ilk hekayə kitabım İthaki Yayınları evində yayımlandı. 2021- ci ildə kinonun başlanğıcından bu günə yer edən, on səkkiz saygın teorisyenin çalışmalarını tərtib etdim.. Bu çalışma Sinemanın Teorisi adıyla keçdiyimiz ay yayımlandı. İlk uzun metraj kurmaca film layihəm Acı Kahve üçün 2021-ci ildə T.C. Kültür ve Turizm Bakanlığı'ndan bir fond aldım. Bu günlərdə film yapım çalışmaları ile məşğul oluram. Mənə elə gəlir ki, bu il içində çəkə biləcəyik. Ayrıca bir serial qələmə aldım. Bu il ərzində Beynəlxalq bir internet platformasında yayımlanacaq.

İkinci hekayə kitabım "Bir Sağır Zangoç", Mart ayı ərzində oxucuları ilə görüşəcək. Onun xaricində Acun Medya Akademi'də və Nişantaşı Üniversitesinde dərslər keçirəm.

Ayrıca başqa qurumlarda da yazmaq ve film yönətmək üzerinə təhsil verirəm, "workshop"lar keçirirəm.

Bir film prodakşın şirkətim var. Sinema filmi çalışmaları xaricində, qurumlar üçün tanıtım filmi və sənədli film çəkirəm.

**- Soner Sert üçün yazmaq nə deməkdir?**

- Yazmaq, mənim üçün bir ifadə vasiitəsidir. Bu günə dair söz söyləmək, olduğum yerdən yaşama ve topluma dair düşüncelerimi iletme yoludur. Ayrıca yazmak, kişisel olarak bir hesaplaşma biçimidir.

Öz qaranlıq yönlərimizi açığa çıxarmak, özümüzlə üzləşmək, acımızı yüngülləşdirmək biçimi olduğunu düşünüyorum. Yalnız bunu edərkən, ən önəmli problem yazdıqlarımızı yayımlama məsələsi...

Nəyə görə bizim ağrı və acılarımız ya da özümüzlə üzləşməmiz başqasının necə deyərlər, vecinə olsun ki?

Sadəcə özümüz üçün yazırıqsa ayrı, amma yazdıqlarımızı yayımlıyırsıqsa, mözvularda ortaq olmaq məcburiyyətindəyik. Ona görə yaxşı müşahidə aparmağınız, başqalarının acılarını da mənimsəməmiz gərəklidir. Ən nəhayətində yazmaq, bir yaxşılaşmaq halıdır deyə düşünürəm. Həm bireysel həm də toplumsal olaraq...

**- Bir çox sənət yönümlü yazılarınız var, ədəbiyyat, fotoqraf, teatr və roman. Yaxşı, bəs ruhunuza yaxın olanı daha çox hansıdır?**

- Hər birinin ayrı bir biçimi olduğunu söyləməklə başlamaq istəyirəm. Yazmağa başladığım, görüntü sənətləri üzərinə çalışdığım zamanlardan bəri bu ayrımlar üzərində düşünürəm. Verdiyim təhsillərdə də fərqli biçimlərə və üslublara ayrıldıqlarını, sanatçının bunlara diqqət etməsi gərəkdiyini vurğulaya bilərəm.



İncəsənət sahələrində çalışarkən, məşğul olduğum hekayə haqqında düşünməyə çalışıram.

Yəni bu hekaye bir öykü olsa mı daha etkili olur, film olsa mı daha etkili olur, deye uzun müddət düşünürəm.

Öykü olunca kelimeler, film olunca görüntüler beliriyor aklımda. Ona görə də hekayə şəkil alıyor. Sualınıza geri dönərsək, ruhuma en yaxın olan sanatsal biçim, filmdir.

### *"Uzun müddət təhsil almaq gərəkdiyini düşünmürəm"*

**- Soner bəy, yazmağı bacarmaq üçün təhsil şərtdirmi? Yazının qanunları varmı?**

- Uzun müddət təhsil almaq gərəkdiyini düşünmürəm. Yazmanın bilimsel bir metodu var təbii ki, ama bu təhsil qısa müddətdə verilə bilir. Bunun üçün də bol - bol emalatxana qururam. Dramaturji bilgisi, giriş-gelişme-sonuç ve texnik məsələlərlə bağlı təlimlərdə daha çox buna diqqət yetiririk. Bu müddətdən sonra, yazmaq tamamən zaman ayırmaq məsələsinə çevirilir. Artıq yazar adayı, pratik yapmak zorunda...

Bu müddətdə bir hocanın varlığına ehtiyac duyula bilir. Yönlendirmek ve və düzgün perspektivlər təqdim etmək üçün... Amma əsl olan yazıçı namizədinin bunu məşğuliyyətə çevirməsi... Yazıçı namizədinin problemi varmı, bu problem onu özünü ifadə etməyə məcbur edirmi? O, doğrudanmı yazıçı olmaq istəyir? Bu prosesdən sonra onun imanı və qətiyyəti işə düşür. Və məncə hər kəs yazıçı ola bilər.

**- Hansı növdə yazı yazmağı sınamaq istəyərdiniz?**

- İstədiyim hər növdə yaza bilirəm, bu mövzuda şanslıyam sayılır.

**- Film ssenariləri necə yazılır? Nə qədər müddət tələb edir yazmaq?**

- Bu tam da bir atölye sorğusu. Belirgin bir metod izləyirəm təbii ki. Önermeyi çıkarıyorum, sinopsisi ve tretmanı qələmə alıram. Bəzən xarakterleri sinopsisden öncə də yazdığım olur. Ən son ssenarini yazıram. Nə qədər müddətdə yazıldığı yazarın disiplininə ve hekayənin yapısına görə dəyişir. Uzun müddətdir yazdığım ve bir hekayəni yazmadan önce kafamda uzun uzun şəkilləndirdiyim üçün bir-iki ay gibi bir sürede bir film ssenarisi yaza bilirəm.

**- İzləyici kütləsini düşünüb yazırsınız, ya?**

- Yazmaya başlamadan öncə, özümə həmişə eyni sualı verərəm: Neden bu hikaye seyircinin umurunda olsun, neden bu filmi izlesinler? Bu sorunun, doğru cevaplarını bulmaya çalışıyorum. Seyirci, bir hik?yeyi ekranda gördüğü andan itibaren onun finalini tahmin etmeye çalışır. Bunu herkes yapar. Dolayısıyla onu şaşırtmam gerektiğini, finalini tahmin etmesinin o kadar da kolay olmaması gerektiğini kendime hatırlatırım. Bu durum, yazarken hoşuma da gider. Bir bilmece sorusu hazırlamak gibidir. Bunu unutmamaq gerekir, dünyanın en güzel hik?yesini de anlatsanız seyirci sıkılıyorsa filminizi izlemez. Bu səbəbdən hər kəsi maraqlandıran ortaq dərdlər, zəkicə çözümler tapmaq gərəklidir.

**- Necə oldu "Duvar"ı yazdınız?**

- Yazmaya başladıqdan sonra aklımda çok fazla hik?ye birikmişti. Bazen çocukken dinlədiyim hekayələr ağlıma gelir ya da tanış olduğum, müşahidə etdiyim anlardan kalanlar zihnimde süzülüyordu. Zaman içinde bunları kaleme almaya başladım. Kişisel bir yerden, bir ifade aracı olarak gördüm bu hekayələri. Bir müddət sonra da yayımlamaya qərar verdim. Umarım oxucu da sevmişdir.

**- Yazdıqlarınız hekayələr bir-birlərilə əlaqəli olurmu?**

- Bəzən olur, bəzən olmur. Yazmadan öncə bir şema (sxem) edirəm təbii ki. Hekayələrin uzanacağı nöqtələri, nəyi necə anlatmam gərəktiyini, o hekayenin dönüm nöqtələrini və mövzularını hesablayıram. Amma bir - biriylə ortaqlıq qurmayan hekayələr də yazıram. Məncə hər hekayə öz sözünü deyir həyata.

### *Yazmaq məni diri tutur*

**- Kitab üzlərinin də dizaynını siz edirsiniz bildiyim qədər. Başqa yazarlar için də keçərlidir, yoxsa ancaq öz kitablarınıza aiddir?**

- Kitab üzlərinin ya da film afişalarımı əslində mən hazırlamıyorum amma ideanı mən verirəm. Dizaynerə uzun - uzun danışıram nə istədiyimi. Bəzen bir foto - çərçivə götürürəm və filmdəki ya da kitaptaki konuyla bağlantısını danışıram. Danışılan hikayəni ən yaxşı bilən kişi mən olduğum üçün, ona görə bir görsel bulmaya çalışıyırıq.

**- Bildiyim qədərilə Nişantaşı Üniversitetinde çalışırsınız. Gənc müəllim olmaq sizin için çətin deyil? Yəni yazıçısınız nəticə etibarilə.**

- Nişantaşı Üniversitesinde bazı zamanlar dışarıdan ders veriyorum. Sadəcə orada da deyil, bir çox qurum ve müəssisədə atölyeler yapıyorum. Amma sorunuza genel olaraq bir cavap verirəmsə, yazmaya hər zaman vaxt tapıram.

Yazmaq məni diri tutur. Çünkü çok kişisel bir alan. Amma dərs vermək, seminar aparmaq da çox canlı saxlayır. Bir çox insanla tanış oluram, onların hekayələrini dinləyirəm, xarakterlerini müşahidə edirəm. Hətta bəzən onların xarakterləri əsasında hekayə də yazıram.

**- AzTv telekanalı ile birlikte "Medya yayımcılığı" adlı sertifikat proqramında siz də dərs deyirdiniz bildiyim qədər. Nəticə nə oldu? Dərslər necə keçirdi?**

- Dərslər çok zövqlü keçirdi. Umarım iştirakçılar da həzz aldılar. AzTV - də təhsil verərkən mənim ən çox maraǧımı çəkən şey, qatılan dostlarımızın çox istəkli olmağı idi. Mən danışarkən, ekrandan nə qədər istəkli göz görürdüm. Bu bir atölye için en önemli şey. Vaxt məhdudiyyətindən, məsafəden dolayı çok yararlı olabildimmi, yaxud bilmirəm amma münasib şərait yaradılarsa, Azərbaycanda film, serial və ya hekayə yazmaqla bağlı üzbəüz seminar keçirmək istərdim.

**- Tələbəniz varmı, xüsusi olaraq hazırlq keçirsiniz?**

- Təbii ki, zaman-zaman çox həvəsli olduğunu düşündüyüm yazıçı namizədlərinə dərs verirəm. Burada mənim üçün önəmli olan yazıçı namizədinin puldan əvvəl həvəsli və istəkli olmasıdır.Əgər doğrudan da yazmaq istəyirsə, bu təlimi verirəm.

**- Şeir necə, yazırsınız?**

- Şeir oxumağı sevirəm, amma yazmıram. Düşünürəm ki, hər sənət sahəsi bir hekayə danışır. Bir mahnı, bir fotoşəkil, bir şəkil bir hekayə danışır. Şeir fərqli deyil. Amma onun başqa intizamı var. Mən daha çox ağlıma gələn hekayələri nəsr və ya obrazlar vasitəsilə danışmağa maraqlıyam.

**- Yazmaqla əlaqəli sertifikatlı kurs proqramı təşkil etmək kimi bir fikriniz varmı?**

- Bəli, uzun müddətdir düşünürəm. Düşünürəm ki, tezliklə belə bir şey edəcəm. Amma tələbələri müsahibə yolu ilə seçməyi düşünürəm. Həqiqətən yazıçı olmaq istəyənlər üçün veriliş hazırlamaq daha yaxşı olardı.

**- Qardaş ölkəyik nəticə etibarilə. Azərbaycanla birlikdə iş qurrsunuz, maraqlıdır Azərbaycana necə, gəlməyi düşünürsünüz?**

- Mən heç vaxt Azərbaycanda olmamışam. Gəlməyi çox istərdim, əlbəttə. Mən hətta əməkdaşlığı gücləndirmək istəyirəm. Mən öz prodüser şirkətim vasitəsilə "yazı emalatxanası" qurmaq və tanıtım filmi, sənədli film və ya film-serial çəkmək istəyirəm. Ümid edirəm tezliklə baş tutacaq.

**Söhbətləşdi: Şəlalə Camal**
**(AJB - nin üzvü)**


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 70**
Çapa imzalanmışdır:
30.03.2022